Azərbaycan الأذربيجانية

# 3 Tövhidin qisimləri

Allahı (əzzə və cəllə) ona aid olan rububiyyətində, uluhiyyətində və ad və sifətlərində təkləşdirmək.

Onun üç növü var

### Ad və sifət tövhidi

Allahı (əzzə və cəllə) öz kitabında və ya Peyğəmbərinin ﷺ dili ilə özünü adlandırdığı və vəsf etdiyi kimi təkləşdirməkdir. Bu da, heç bir təhrif etmədən, inkar etmədən, keyfiyyətə varmadan və bənzətmədən Allahın özünə təsdiq etdiyini təsdiq etməklə, inkar etdiyini inkar etməklə həyata keçirilir.

### Uluhiyyət tövhidi

Allahı (əzzə və cəllə) ibadətdə və ya qulların feillərində təkləşdirməkdir.

### Rububiyyət tövhidi

Allahı (əzzə və cəllə) feillərində təkləşdirməkdir. Və ya Allahı (əzzə və cəllə) yaratmağında, sahibliyində və işləri idarə etməyində təkləşdirməkdir.

# Dinin üç mərtəbəsi var

### Ehsan

Allaha (əzzə və cəllə) Onu görürmüş kimi ibadət etmək. Sən onu görməsəsn də, O səni görür.

**Bir rüknun altında iki qism**

1-Müşahidə ibadəti
Allahı görürmüş kimi ibadət etmək
2-Nəzarət ibadəti
Sən onu görməsəndə o səni görür

### İman

Dil ilə demək, qəlb ilə etiqad etmək və əzalarla əməl etməkdir. Artır və azalır.

**İmanın ərkanları: 6**

1-Allaha iman
2- Mələklərinə iman
3- Kitablarına iman
4- Peyğəmbərlərinə iman
5-Axirət gününə iman
6- Qədərin xeyirinə və şərinə iman

### İslam

Allaha (əzzə və cəllə) tövhid ilə təslim olmaq, itaət ilə boyun əymək və şirk və əhlindən uzaq durmaqdır

**İslamın ərkanları: 5**

1- Şəhadət gətirmək
2- Namaz qılmaq
3- Zəkat vermək
4- Ramazan orucu tutmaq
5- Həcc etmək. (kim bacarırsa)

# 4 Haramların qisimləri

### Kiçik günahlar

(Böyük günahlardan başqa hamısı) Böyük günahlar istiğfarla silinir, kiçik günahlar isə təkrarlandıqca böyük olur. Peyğəmbər ﷺ buyurub: Sizi kiçik günahlardan çəkindirirəm, çünki onlar insanda o qədər toplanar ki, sonunda onu həlak edər.

### Böyük günahlar

(Xüsusi bir cəza gələn hər bir əməl) Sehr, valideyinlərin Üzünə ağ olmaq, faiz, zina, yalan, sərxoşedici içkilər, oğurluq, qeybət, Allahın icazə vermədiyi cana qıymaq və yetim malı yemək kimi.

### Kiçik şirk

(İslamdan çıxarmır, Böyük günahdır) “Allah və sən istəsən” sözü kimi, Allahdan başqasına and içmək kimi, kiçik riya, şirk olan boyunbağı, bədbinlik, ələm və göz muncuğu kimi əməlləri, qorumağa səbəb və ya göz qaytaran səbəb kimi edərsə.

### Böyük şirk

(İslamdan çıxarır, onun üzərində ölsə bağışlanmır) Allaha tay seçməkdir. Allaha dua etdiyi kimi ona dua edir, qorxduğu kimi qorxur, Allahı sevdiyi kimi onu da sevir və ya ibadət növlərindən birini ona yönəldir.